Rəhimov İ.M.[♦]

DOI: 10.25108/2304-1730-1749.iolr.2025.81.143-147
UOT: 343.9

## Ölüm cəzasının gələcəyi

**Xülasə:** Ölüm cəzasını öz qanunvericiliklərində saxlamış və ondan imtina etmiş ölkələrdə ara-sıra kəskin polemikalar aparılır. Ölüm cəzasının dünyada əlehdarlarının çox olduğuna və onların kifayət qədər güclü dəlillərinin olmasına baxmayaraq, bu cəza tədbiri günümüzdə də mövcuddur və bir çox ölkələrdə icra edilir.

Ölüm cəzasının ləğv edilməsi tərəfdarlarının əsas arqumenti ondan ibarət olmuşdur ki, bu cəza cinayətin qarşısını almaq üçün heç bir əhəmiyyətə malik deyildir və onların əsas arqumenti ondan ibarət olmuşdur ki, bu cəza cinayətin qarşısını almaq üçün heç bir əhəmiyyətə malik deyildir.

Hesab edirik ki, bu cəzadan imtina etmiş cəmiyyətlər onun bərpası məsələsinə yenidən qayıdacaqlar, onu qanunvericiliklərində saxlayanlar isə öz mövqelərinin doğruluğunda daha əmin olacaqlar. Belə nəticənin çıxarılması üçün hüquqi, fəlsəfi və dini əsaslar vardır.

**Açar sözlər:** ölüm cəzası; ədalət; əxlaq; zərurət; qanunçuluq; cəza konsepsiyası.

Rahimov I.M.[♦]

DOI: 10.25108/2304-1730-1749.iolr.2025.81.143-147
UDC: 343.9

## Future of the death penalty

**Abstract:** Sharp polemics are occasionally held in countries that have retained the death penalty in their legislation and those that have abandoned it. Despite the fact that there are many opponents of the death penalty in the world and their fairly strong arguments, this punishment still exists today and is carried out in many countries.

The main argument of those in favor of abolishing the death penalty was that this punishment had no significance in deterring crime. Their main argument was that this punishment had no significance in deterring crime.

We believe that societies that have abandoned this punishment will return to the issue of its reinstatement, while those that retain it in their legislation will become more confident in the correctness of their position. There are legal, philosophical, and religious grounds for drawing such a conclusion.

**Keywords:** death penalty, justice, morality, necessity, legality, concept of punishment.

Bu gün demək olar ki, ölüm cəzasını öz qanunvericiliklərində saxlamış və ondan imtina etmiş ölkələrdə ara-sıra kəskin polemikalar aparılır. Bu, Amerika Birləşmiş Ştatları, Avropa ölkələri,

[♦] **Rəhimov İlham Məmmədhəsən oğlu** - Rusiya Elmlər Akademiyasının akademiki, hüquq elmləri doktoru, professor, Azərbaycan Respublikasının əməkdar hüquqşünası, Beynəlxalq Hüquq Tədqiqatları Təşkilatı Şurasının üzvü (Azərbaycan). E-mail: mopi_sid@yahoo.com

[♦] **Rahimov Ilham Mammadhasan oglu** – Academician of the RAS, Doctor of Juridical Sciences, Professor, Honoured Jurist of Azerbaijan Republic, a member of the Council of the IOLR (Azerbaijan). E-mail: mopi_sid@yahoo.com

postsovet məkanı ölkələrinə aiddir. Belə ki, 1969-cu ildə ölüm cəzazı ləğv olunandan sonra ingilis parlamentinə onun bərpa olunması üçün təkliflər verilmişdir. Vaxtı ilə A.Bemer yazmışdır: "Son on il ərzində ölüm cəzasının təxirə salındığı ölkələrdə təntənəli olaraq onun tam ləğv olunması vaxtının gələcəyi haqqında bəyanatlar verilmişdir" [1, c. 90-91].

Ölüm cəzasının dünyada əlehdarlarının çox olduğuna və onların kifayət qədər güclü dəlillərinin olmasına baxmayaraq, bu cəza tədbiri günümüzdə də mövcuddur və bir çox ölkələrdə icra edilir. Ölüm cəzasına qarşı çıxış edən Bekkaria kimi alimlər öz mövqelərini əsaslandırmaq üçün həyatdan, bu və ya digər xalqların tarixindən misallar gətirirlər. Belə ki, ölüm cəzasının qeyri-hümanistliyinin sübutu kimi onlar ölüm cəzasının varlığına baxmayaraq cinayətkarlığın azalmadığını vurğulayırlar. Bundan başqa bu cəzanın varlığı insanları heç də islah etmir və qorxutmur. A.Berner qeyd etmişdir: "Xüsusi edamların qanlı səhnələri xalqın mənəviyyatını korlayır və onların pisixologiyasında mənfi dəyişikliklərə səbəb olur, insana qarşı mərhəmət hissinin qarşısını alır, ona qəddarlıq və qanahərislik hissləri aşılayır" [1, c. 30]. Hətta insan qəddarlığının əsl təcəssümü olan Neron bir cinayətkarın ölüm cəzasını təsdiqləyən sənədi imzalayarkən: "Mən savadsız olmaq, yazının nə olduğunu bilməmək istərdim" deyərək bağırmışdır. O, insanı ölümə məhkum etmə fikrindən sıxılmışdır. Bəzən ölüm cəzasının əlehdarları T.Morun - İnsan həyatı dünyanın bütün nemətləri ilə müqayisə olunmazdır - deyiminə istinad edirlər. Ancaq T.Mor iqtisadi cinayətlər sahəsində ölüm cəzasına qarşı çıxırdı. O qeyd edirdi: "Fikrimcə, pulun alınmasına görə insanı həyatdan məhrum etmək olmaz. Hesab edirəm ki, insan həyatını öz dəyərinə görə dünyanın bütün nemətləri ilə bərabərləşdirmək olmaz. Əgər mənə deyirlərsə, bu cəza pula görə deyil, ədalətin pozulmasına görə verilir, o zaman bütün əsaslarla nə üçün bu yüksək hüququ ali ədalətsizlik adlandırmayaq? Tanrı kimisə öldürməyi qadağan etdi, biz isə bir miqdar pulun yeyintisinə görə, necə də asanlıqla insanları öldürürük [6, c. 68].

Ölüm cəzasının ləğvinin tərəfdarları onun qan qisasından əmələ gəlməsi dəlilini irəli sürürlər. Belə ki, S.V. Jiltsov hesab etmişdir: "Ölüm cəzasının obyektiv əsası qətlə görə qisasın alınmasıdır, talion prinsipidir. Obyektiv olaraq heç bir digər cinayətə görə ölüm cəzası verilə bilməz" [3, c. 7].

Bu yanaşmanın səhv olmasına baxmayaraq, elmdə ölüm cəzasının qan qisası adəti ilə genetik bağlantısı vardır. O, ölüm cəzasına xarakterik ola bilməyən əlamətlərlə səciyyələnir. Qan qisası belə bir əxlaqi borc hesab edilirdi ki, onun icra edilməməsi ar və şərəf məsələsi hesab edilirdi. Buna görə qisas qismində ölüm cəzasından fərqli olaraq qan qisası tayfanın, cinsin, ailənin şərəfini qorumaq məqsədini güdür.

V.V.Yesipov çox doğru hesab etmişdir ki, "ölüm cəzasını qan qisasından ayırmaq olmaz, çünki "qan qisası" belə bir kompozisiya sistemi görkəmini almışdır ki, o, ölüm cəzasının tətbiq edilməsinə qədər uzun müddət mövcud olmuşdur" [2, c. 42].

Qisasın ölüm cəzasından fərqi təkcə ondan ibarət deyil ki, biri şəxsin iradəsi, digəri isə dövlətin iradəsi ilə həyata keçirilir. Məsələ bundadır ki, qan qisasını yerinə yetirən insan etdiyi əməldən həzz alır və bu əməli elə özünün, qohumlarının, tayfasının, cinsinin və s. həzz və ədalət hisslərinin ödənməsi üçün törədir. Ancaq söhbət cəmiyyətin, o cümlədən zərərçəkənin yaxınlarının ədalət hissinin ödənməsindən gedə bilər.

Bundan başqa qan qisası zərərlə qisas arasında mütləq tarazlığı nəzərdə tutmuşdur. Zərər vuran kəffarənin ödənməsi ilə canını qurtara bilərdi. Əgər caninin özü ölüm cəzasının obyekti kimi çıxış edirdisə, onda qisas obyekti təkcə zərər yetirən deyil, həmçinin bu ailənin, tayfanın və s. hər bir üzvü çıxış edə bilərdi. Beləliklə, qan qisasının mənbəyi bu və ya digər xalqın adət-ənənələri olmaqla, bu fəaliyyətin məqsədi ictimai və şəxsi maraqların qorunmasıdır.

Ölüm cəzasının ləğv edilməsi tərəfdarlarının əsas arqumenti ondan ibarət olmuşdur ki, bu cəza cinayətin qarşısını almaq üçün heç bir əhəmiyyətə malik deyildir. Q.D.Tardın fikrinə görə, bu cəzaya qarşı ən yaxşı dəlil onun cəmiyyət üçün faydasız olması deyil, onun doğurduğu əxlaqi və estetik ikrahdır. "Mən uzun müddət ölüm cəzası qarşısında özümdə dəhşət hissini öldürmək istəmişdim, ancaq bunu edə bilmədim" [7].

İnsanların ölümdən qorxmamasını iddia etmək - deməli yalanı iddia etmək, təbiətə qarşı çıxmaq və yüksək mənasızlığı bəyan etməkdir. A.F.Kistyakovski tamamilə doğru olaraq qeyd etmişdir ki, "Ölüm cəzası qorxusundan daha aşkar, sadə və aydın bir şey yoxdur. İnsan bu cəzanın ağılda təsəvvür edilməsindən belə, dəhşət hissi keçirir" [5, c. 55].

Ölüm qorxusu cani üçün ciddi maneədir. Hətta adi sağlam düşüncədən çıxış edərək insanlar başqa işgəncə növlərindən daha çox ölümdən qorxurlar. Deməli, ölüm cəzası cinayətkarlara digər cəzalardan daha çox çəkindirici təsir göstərir. V.A.Jukovski yazırdı: "Edam reallıqdan başqa bir şey deyildir. O, şəri təqib edir və Tanrı tərəfindən qoyulan ictimai qaydaları qoruyur. Ölüm cəzası uzaqda öz qılıncı ilə təhdid edən Nemezida kimidir. O, canini izləyən kabus, öz görsənməyən varlığı ilə dəhşətlidir və onun haqqında fikir çoxlarını şər əməl törətməkdən çəkindirir" [4, c. 186].

Belə fikirlər vardır ki, ölüm cəzası qorxulu deyil, çünki hamının qismətində ola bilər. Eyni zamanda, bir çox müdriklər onu təsəlli kimi dəyərləndirirdilər. Onun ağrısız olması, hətta ondan dar ağacında və ya gilotinada müəyyən həzz alınmanın mümkünlüyü haqqında deyənlər də olmuuşdur. Bu fikirlər elmi cəhətdən ədalətli səslənsə də, ümumi əhval-ruhiyyəyə zidd düşüncələrdir [5, c. 57].

Ölüm cəzasının ləğv olunmasının daha bir dəlili ondan ibarətdir ki, o həqiqətə, humanizmə deyil, gücə arxalanır. Sözsüz ki, humanizmə qarşı çıxış etmək cəfəngiyyatdır. Buna görə də, iki əhəmiyyətli məqam olmasaydı, bu iki əhəmiyyətli müddəaya dəstək verərdik.

Birincisi, əgər biz ölüm cəzasını humanizmə zidd cəza növü hesab edib, cinayətkarlara qarşı hümanist münasibət tələb ediriksə, onda cinayətdən zərər çəkənlər haqqında da düşünməliyik. Məgər cinayətkarın amansızlıqla öldürdüyü insanın iki, üç və daha çox uşağı ilə qalan arvadına etinasız münasibət humanizmdirmi? Nədənsə, o anda biz ancaq caniyə qarşı humanizm haqqında düşünürük. Humanizm və ədalət o zaman zəfər çalacaqdır ki, dövlət qətlə yetirilmiş şəxsin ailəsinin öz öhdəsinə götürmüş olsun.

İkincisi, əgər ölüm cəzası humanizmə ziddirsə, onda onu əvəz edən ömürlük azadlıqdan məhrumetmənin humanistliyi şübhəli və sual altındadır. Buna görə ölüm cəzasından onda imtina edərik ki, onun ən anti-humanist olmasına əmin olardıq. Ancaq heç də onun alternativinin, ondan yaxşı profilaktik effekti yoxdur. Təəssüf ki, bu gün biz buna əmin deyilik. Şübhəsiz, ölüm cəzası ilə müqayisədə ömürlük həbs cəzası daha da humanist cəzadır.

Ancaq etiraf edilməlidir ki, ölüm cəzasındakı qorxu, ömürlük həbs cəzasında olan qorxudan güclüdür. Bəziləri bununla razı olmasalar belə, bu reallıqdır. Ölüm cəzasına məhkum olunmuş şəxs onun əvəzində ən sərt və uzun müddətli cəzanın çəkilməsinə, ağır işlərə və digər cəzaçəkmə şəraitinə razı olarlar. Buna görə də, ömürlük azadlıqdan məhrum etmə cəzası ölüm cəzası kimi cinayətlərin qarşısının alınması gücünə malik deyildir.

Ölüm cəzasının ədalətliliyi ancaq onda qəbul oluna bilər ki, həmin vaxt onun zəruriliyi və əvəzolunmazlığı sübuta yetirilsin. Eləcə də, əksinə; ölüm cəzasının ədalətliliyi ancaq onda şübhə altına almır ki, onun zəruriliyi və əvəzolunmazlığı sübuta yetirilsin. Humanizm baxımından ölüm cəzasını inkar etsək də, biz iddia edirik ki, bu cəza ən yüksək təhdidedici keyfiyyətə malikdir.

Ölüm cəzasının gələcəyi necə olacaqdır? Bu cəzadan imtina etmiş cəmiyyətlər onun bərpası məsələsinə yenidən qayıdacaqlar, onu qanunvericiliklərində saxlayanlar isə öz mövqelərinin

doğruluğunda daha əmin olacaqlar. Belə nəticənin çıxarılması üçün hüquqi, fəlsəfi və dini əsaslar vardır.

## Biblioqrafiya

1. Бернер А.Ф. О смертной казни. – Санкт-Петербург: тип. О. Стелловского, 1865. – 97 с.

2. Есипов В.В. Преступление и наказание в древнем праве. – Варшава: тип. Варш. учеб. окр., 1903. – 61 с.

3. Жильцов С В. Смертная казнь в истории отечественного права. Дис. докт. юрид. наук. М., 2002, 470 с.

4. Жуковский В.А. О смертной казни // Соч. Т. 11. – СПб, 1857

5. Кистяковский А.Ф. Элементарный учебник общего уголовного права. – Киев: тип. Ф.А. Иогансон, 1891. – 887 с.

6. Мор Т. Утопия. – М.; Л.: 1958.

7. Тард Г.Д. Преступник и преступление. Сравнительная преступность. Преступность толпы / сост. и авт. примеч. В.С. Овчинского. – М.: ИНФРА-М, 2009. – 391 с.

***Məqalə daxil olmuşdur:*** *18 noyabr 2025-ci il*
***Çapa qəbul edilmişdir:*** *28 noyabr 2025-ci il*

## References

1. Berner A.F. On the Death Penalty. – St. Petersburg: O. Stellovsky Publ., 1865. – 97 p. (in Russian).

2. Esipov V.V. Crime and Punishment in Ancient Law. – Warsaw: Varsh. Education District Publ., 1903. – 61 p. (in Russian).

3. Zhiltsov S.V. The Death Penalty in the History of Russian Law. Doctor of Law Diss. Moscow, 2002, 470 p. (in Russian).

4. Zhukovsky V.A. On the Death Penalty // Works. Vol. 11. – St. Petersburg, 1857 (in Russian).

5. Kistyakovsky A.F. Elementary Textbook of General Criminal Law. – Kyiv: F.A. Ioganson Printing House Publ., 1891. – 887 p. (in Russian).

6. More T. Utopia. – Moscow; Leningrad, 1958. (in Russian).

7. Tarde G.D. The Criminal and the Crime. Comparative Crime. Crowd Crime / compiled and annotated by V.S. Ovchinsky. – Moscow: INFRA-M Publ., 2009. – 391 p. (in Russian).

***The article was submitted:*** *2025 November 18*
***Accepted for publication:*** *2025 November 28*

Рагимов И.М.[♦]

DOI: 10.25108/2304-1730-1749.iolr.2025.81.143-147
УДК: 343.9

## Будущее смертной казни

**Аннотация**: В странах, сохранивших смертную казнь в своём законодательстве, и в странах, отказавшихся от неё, периодически разгорается острая полемика. Несмотря на то, что в мире существует множество противников смертной казни и у них есть достаточно веские аргументы, это наказание существует и применяется во многих странах.

Главным аргументом сторонников отмены смертной казни является то, что это наказание не имеет никакого значения для предотвращения преступлений.

Мы полагаем, что общества, отказавшиеся от этого наказания, вернутся к вопросу о его восстановлении, а те, кто сохранил его в своём законодательстве, будут более уверены в правильности своей позиции. Для такого вывода есть правовые, философские и религиозные основания.

**Ключевые слова**: смертная казнь; справедливость; мораль; необходимость; законность; концепция наказания.

***Дата поступления:*** *18 ноября 2025 г.*
***Дата принятия в печать:*** *28 ноября 2025 г.*

[♦]**Рагимов Ильгам Мамедгасан оглы** – академик РАН, доктор юридических наук, профессор, заслуженный юрист Азербайджанской Республики, член Совета МОПИ (Азербайджан). E-mail: mopi_sid@yahoo.com